Firdovsi Rəsul

## Səni görmürəm

Bu soyuq şaxtalı qış gecəsində
Açıb pəncərəni göy üzünə bax.
Gör harda gizlənib arzularımız
Yaxşı bax, bir azdan səhər olacaq.

Sonsuz kainatda axtar özünü
Ulduza yaxınsan, aydan uzaqsan
Səhər açılmamış, günəş çıxmamış
Bütün göy üzünə yayılacaqsan.

Bu dünya isinər nəfəsin ilə
Nədir ürəyini belə yandıran?
Bəlkə, gözlərinin nurudu elə
Bütün bu dünyanı işıqlandıran

Bir zaman deyirdim nə yaxşı səni
Göydə axtarırdım, yerdə tapmışam.
Görən yer üzündə tapdığım qızı
Necə göy üzünə bağışlamışam?

Arada yaranan məsafəyə bax
Bir allah salamın verə bilmirəm,
Mənmi qaldırmışam göylərə səni
Özümmü enmişəm yerə bilmirəm.

Sən ki ay deyilsən, günəş deyilsən,
Parlayan ulduz da deyilsən axı,
Amma sən necəsə görünməlisən
Gözə görünməzdə deyilsən axı.

Zülmət gecəyəmi bürünmüsən sən
Qaralıb gözümün önü görmürəm
Ulduzu görürəm, ayı görürəm,
Günəşi görürəm, səni görmürəm…